

# Tahir Rza

*Rzayev Tahir Musa oğlu Ağcabədidə anadan olub. Bakı Dövlət Universitetinin məzunudur. Uzun müddət rəhbər vəzifələrdə çalışıb. Milli Məclisin deputatıdır. "Məhəbbətsiz yaşamaram", "Gileylənmə bu dünyadan", "Ana laylası", "Əbədiyəm dünyada", "Dərdimin dərmanı duyğularımdır", "Sabahını düşün, insan" şer kitablarının müəllifidir.*

## OLSA

**Mənim qəlbim bir sehirli kamandır
Anlayıb, kökləyib çalanı olsa.
Dosta sədaqətli, yada yamandır
Dərdinə, halına qalanı olsa.**

**Aqilə yer vein, keçirin başa
Nadanın baharın döndərin qışa.
Qoymayın bir kəsi həddini aşa
Əgər yanınızda yalanı olsa.**

**Dünya çox şirindir dərdi-səriylə
Yaxşı yamanıyla, xeyri şəriylə.
Xoşbəxt o insandır əməlləriylə
Yoluna bir işiq salanı olsa.**

**Xoş sözə əyilər, bəd sözü udmaz
Yaxşıya kəm baxıb, yamanı tutmaz.
Sevər, əzizləyər, heç vaxt unutmaz
Tahirin könlünü alanı olsa.**

## MƏNİ DƏRD GÜLDÜRÜR

*Dərdimlə qol-boyun olan günləri
Mənim taleyimə, ömrümə yazın.
Yapışsın yaxamdan hicranın əli
Dərdsiz bircə anım, günüm olmasın.*

*Ömrüm dərdlərimə qovuşan zaman
İnsan tək düşünüb yaşayıram mən.
Zövq alıb qəlbimin ağrılarından
Bir ömrün yükünü daşıyıram mən.*

*Sevincim dərdimi üstələyəndə
Sanki tənhalıqdan darıxır ürək.
Qayğısız dolaşıb, dərdsiz güləndə
Qəlbim də tıncıxır gülüşlərim tək.*

*Hissimi, duyğumu özümdən aldım
Dərdli ürəklərin yoluna sərdim.
Nə hicran çəkərdim, nə dərd duyardım
Dərdimi içimdə göyərtməsəydim.*

*Duyğusuz, kədərsiz ötən anlarım
Eşqimə, andıma ləkədir, dağdır.
Qoy dərdli qəlblərin qadasın alım
Dərdimin dərdləri sağalacaqdır.*

*Dərdim ürəyimi çəksin tarıma,
Düşünüm dərindən, duyum dərindən.
Hopsun ürəyimə, arzularıma
Güc alım hər anın dərdi-sərindən.*

*Əməldir, duyğudur ömrün məbədi
Dərdim vüsalımla birdir, qoşadır.
Sevincim ötəri, dərdim əbədi,-
Məni dərd güldürür, hicran yaşadır...*

## Etiraf

Sənsiz də günlərim keçəcək mənim,
Sənsiz də ötəcək payız, qış, bahar.
Ömrümə tənhalıq köçəcək mənim,
Döyəcək qapımı hicran, intizar.
Dərdimi illərə açacağam mən,
Həsrətin əlindən qaçağacam mən.
Qapılıb şirinli xatirələrə
Sənin yoxluğunu mən bilə-bilə
Yoluna çıxacam bir səhər erkən,
Gözümdə eynəyim, saçlarımda dən.

Cığırlar üzümə güləcək mənim,
Çiçəklər dərdimi biləcək mənim.
Duyacaq gözümdən hicranı, qəmi,
Bizim eşqimizə cavabdeh kimi
Əyəcək başını möhtəşəm çinar,
Gözündə intizar, qəlbində qubar.
Nə sən olacaqsan, nə söz-söhbətin,
Nə də siləcəyəm göz yaşını mən.
O görüş yerinə basdıracağam,
Nakam eşqimizin başdaşını mən.

## Görmür

**Dünyanın gözü kor, qulağı kardır**
**Doğrunu eşitmir, yalanı görmür.**
**Qananın ürəyi qabar-qabardır**
**Aqili dərdlərə salanı görmür.**

**İnsan var yükünü yığıb təpəyə,**
**İnsan var möhtacdır bircə qəpiyə,**
**İnsan var oynayır çırtıq-çəpiyə,**
**İnsan var içində ilanı görmür.**

**Vətən, xalq söyləyib xalqı söyən də,**
**Xalqın var-yoxunu çapıb yeyən də,**
**Millətə şər, böhtan, yalan deyən də**
**Allahdan danışır, Quranı görmür.**

**Qıy verən, şüy tutan allahsızlara**
**Düzü əyri görür, ağı da qara.**
**Beləsi pul versən, sıyrılır ora**
**Dərdinə, sərinə qalanı görmür.**

**Tahir, bu dünyanın qeylü-qalında**
**Qoy çıxsın gözlərin, getsin qolun da.**
**Bədbəxt o kəsdir ki, Vətən yolunda**
**Ölümlə qol-boyun olanı görmür.**

## Nankor dost

*Mənim gözlərimdə yaş gilələnib,*
*Sənin baxışında xoş təbəssüm var.*
*Mənim ürəyimə həsrət ələnib,*
*Sənin gözlərində gülür arzular.*

*Bir məzar önündə durmuşuq qoşa*
*Sənə də əzizdir, mənə də əziz.*
*Mənim gözlərimdə qəm dönüb yaşa,*
*Sənin baxışların qəmsiz, kədərsiz.*

*Kim bilir nə keçir ürəyimizdən*
*Şərikik bir dostun dərdi-sərinə.*
*Onun taleyinə acıyıram mən,*
*Sənsə göz dikmisən onun yerinə.*